**Moldovanın Kişinyov şəhərində "Statistikada keyfiyyət: dəyişiklikləri necə idarə etməli?" mövzusunda yüksək səviyyəli seminar keçirilmişdir**



Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi sədrinin müavini Yusif Yusifov və Keyfiyyətin idarə olunması və informasiya texnologiyaları şöbəsinin müdiri Qasım Əliyev 2014-cü ilin 16-18 sentyabr tarixlərində Avrostatın təşkilatçılığı ilə Moldovanın Kişinyov şəhərində Şərqi Avropa, Qafqaz və Mərkəzi Asiya (EECCA) ölkələri üçün "Statistikada keyfiyyət: dəyişiklikləri necə idarə etməli?" mövzusunda keçirilmiş yüksək səviyyəli seminarda iştirak etmişlər.

Tədbirin keçirilməsində əsas məqsəd Şərqi Avropa, Qafqaz və Mərkəzi Asiya ölkələrində keyfiyyət mədəniyyətinin formalaşması, siyasət və məqsədlər, keyfiyyətin təminatı, keyfiyyətin qiymətləndirilməsi meyarları və üsulları, insan resurslarının idarə olunması və təlimlərin təşkili, statistik proseslərin idarə olunması, proseslərin sənədləşdirilməsi, qlobal və kollegial qiymətləndirmələrin planlanması, keçirilməsi və dəyərləndirilməsi, keyfiyyətə dair beynəlxalq standartlar və statistika qanunvericiliyi sahəsində əldə olunan son nailiyyətlərin öyrənilməsi, müzakirəsi və Avropa Statistika Sistemində statistik istehsalın həmahəngliyini təmin etmək məqsədilə Avropa konteksti çərçivəsində keyfiyyət təminatının və keyfiyyət mədəniyyətinin ümumi qəbul edilmiş və geniş istifadə olunan metodları üzərinə diqqəti cəlb etmək idi.



Seminarda Azərbaycan, Belarus, Gürcüstan, Ermənistan, Moldova, Qazaxıstan, Qırğızıstan, Tacikistan, Türkmənistan, Ukrayna, Özbəkistan və Monqolustan respublikalarının statistika təşkilatlarının yüksək vəzifəli şəxsləri, İsveç, Türkiyə, Norveç, Almaniya, İslandiya, Slovakiya və Litvanın statistika təşkilatlarının ekspertləri, Avropa Azad Ticarət Assosiasiyası, Avrostat və BMT-nin Avropa İqtisadi Komissiyasının nümayəndələri iştirak etmişlər.

Seminar çərçivəsində milli statistika sistemlərində keyfiyyət sahəsində siyasət və məqsədlərin bəyan edilməsi, proseslərin standartlaşdırılması və sənədləşdirilməsi, keyfiyyətin qiymətləndirilməsi meyarları və alətləri, istifadəçi məmnunluğunun ölçülməsi, qlobal və kollegial qiymətləndirmələrin təşkili sahəsində baş verən proseslərin və ən yaxşı təcrübələrin, beynəlxalq və Avropa standartlarına uyğun olaraq keyfiyyət mədəniyyətinin formalaşması və keyfiyyət təminatına dair imkanlar müzakirə olunmuş, statistika təşkilatlarında həyata keçirilən yeniliklərin yekunları ilə bağlı təcrübələr bölüşülmüş, iştirakçılar arasında fikir mübadiləsi aparılmış, ölkə

təcrübələrinin təqdimatları həyata keçirilmiş, Avropa Statistikasının Normalar Məcəlləsinin keyfiyyətin təminatı sahəsindəki roluna, keyfiyyətin idarəetmə mexanizminin sertifikatlaşdırılması məsələlərinə xüsusi diqqət yetirilmişdir.

Seminar 3 gün ərzində təşkil olunmuş 8 sessiyadan ibarət olmuşdur.

Seminarda Dövlət Statistika Komitəsi sədrinin müavini Yusif Yusifovun "Rəsmi statistikada keyfiyyət mədəniyyəti: davamlılıq və təkmilləşdirmə" və Aparatın Keyfiyyətin idarə olunması və informasiya texnologiyaları şöbəsinin müdiri Qasım Əliyevin "Azərbaycan rəsmi statistikasında proseslərin sənədləşdirilməsi təcrübəsi" adlı geniş təqdimatları olmuşdur. Təqdimatlarda müvafiq sahələr üzrə ölkə təcrübəsi seminar iştirakçılarına təqdim edilmiş və suallar cavablandırılmışdır.

Seminarın sonuncu sessiyası Avrostat nümayəndələrinin yekun təqdimatlarına həsr edilmişdir. Qeyd edilmişdir ki, 2013-2014-cü illərdə Avropa İttifaqı və Şərq regionu Avropa qonşuluq siyasəti ölkələri ilə əməkdaşlıq barədə müqavilələr imzalanmış və ilk 3 ili (2014-2016) əhatə etməklə əməkdaşlıq barədə gündəlik hazırlanmışdır.